# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# «Gömrük auditinin həyata keçirilməsinin nəticələrinə dair aktın forması və tərtib edilməsi Qaydası»nın təsdiq edilməsi barədə

# Qərar № 165

***Bakı şəhəri, 3 avqust 2012-ci il***

«Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının 1.2.4-cü yarımbəndinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

«Gömrük auditinin həyata keçirilməsinin nəticələrinə dair aktın forması və tərtib edilməsi Qaydası» təsdiq edilsin (əlavə olunur).

***Azərbaycan Respublikasının Baş naziri***

***Artur RASİ-ZADƏ***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (7 avqust 2012-ci il, № 174) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir ( 31 avqust 2012-ci il, № 8, maddə 814) («VneshExpertService» LLC).***

---

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*2012-ci il 3 avqust tarixli*
*165 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

# Gömrük auditinin həyata keçirilməsinin nəticələrinə dair aktın forması və tərtib edilməsi Qaydası

## *1. Ümumi müddəalar*

1.1. Bu Qayda Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 98.4-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və gömrük orqanları tərəfindən aparılan auditin nəticələrinə dair aktın formasını və tərtib edilmə qaydasını müəyyən edir.

1.2. Gömrük auditi gömrük orqanları tərəfindən, malların və nəqliyyat vasitələrinin buraxılışından, o cümlədən şərti buraxılışından sonra gömrük bəyannaməsində göstərilən məlumatların düzgünlüyünə əmin olmaq, eləcə də şəxsin mallar və nəqliyyat vasitələri barəsində sərəncam verilməsinə dair məhdudiyyətlərə, tələblərə və şərtlərə riayət etmək öhdəliklərinin yerinə yetirməsinin vəziyyətini müəyyənləşdirmək məqsədi ilə aparılan tədbirlərdir.

1.3. Gömrük auditi ümumi və xüsusi formalarda həyata keçirilir.

1.4. Ümumi gömrük auditi 3 (üç) iş günündən artıq olmayan müddətdə aparılmalıdır. Auditin aparılması şəxsin istehsal və kommersiya fəaliyyətinin həyata keçirilməsinə mane olmamalıdır. Eyni mallara dair təkrar ümumi gömrük auditinin aparılmasına icazə verilmir.

1.5. Xüsusi gömrük auditi gömrük orqanının rəhbərinin və ya onu əvəz edən şəxsin yazılı qərarı əsasında həmin qərarın qəbul edildiyi gündən 2 (iki) aydan gec olmayaraq başa çatdırılmalıdır. Xüsusi gömrük auditinin eyni şəxsə və eyni mala münasibətdə təkrarən aparılmasına icazə verilmir

## *2. Gömrük auditinin həyata keçirilməsinin nəticələrinə dair aktın forması və tərtib olunma qaydası*

2.1. Aparılmış gömrük auditinin nəticələri gömrük auditinin həyata keçirilməsinin nəticələrinə dair aktla (bundan sonra — akt) rəsmiləşdirilir.

2.2. Akt gömrük auditinin başa çatdığı gündən 10 (on) gün müddətində iki nüsxədə tərtib olunur və onun bir nüsxəsi barəsində gömrük auditi aparılmış şəxsə təqdim edilir.

2.3. Akt bu Qaydanın əlavəsinə uyğun formada tərtib edilir.

2.4. Akt ümumi, analitik, təyinedici və yekun hissələrdən ibarət olur. Akta qoşmalar əlavə edilir.

2.5. Ümumi hissədə auditin forması, başlandığı və başa çatdığı tarix, auditi həyata keçirən gömrük orqanlarının işçiləri (müştərək gömrük auditi aparıldıqda gömrük və vergi orqanlarının işçilərindən ibarət komissiya üzvləri), yoxlanılan şəxs və onun fəaliyyət növü barədə məlumatlar əks olunur.

2.6. Analitik hissədə yoxlanılan şəxsin audit dövründə gömrük sahəsində fəaliyyəti barədə ətraflı məlumat əks olunur, audit zamanı komissiya tərəfindən görülmüş tədbirlər (gizlədilmiş sənədlərin aşkar olunması, müvafiq sorğunun göndərilməsi və ya malların ekspertizaya göndərilməsi) bəndlər üzrə qeyd edilir.

2.7. Təyinedici hissədə gömrük auditinin aparılması nəticəsində aşkar olunmuş müvafiq qanunvericiliyin tələblərinə əməl olunmaması faktları, həmçinin cinayət və ya inzibati hüquqpozma əlamətləri və yol verilmiş nöqsanlar barədə məlumatlar əks olunur.

2.8. Audit nəticəsində bu qaydanın 2.7-ci bəndində göstərilən faktlar və əlamətlər aşkar olunmadığı hallarda, bu barədə qeydlər aktın təyinedici hissəsində öz əksini tapmalıdır.

2.9. Akta yoxlanılmış və yalnız sənədlərlə təsdiqlənmiş faktlar daxil edilməlidir. Müxtəlif xarakterli nəticələrin, gümanların, sənədlərlə təsdiqlənməmiş məlumatların akta daxil edilməsinə yol verilmir.

2.10. Aktda qanunvericilik aktlarının pozulmasının konkret predmeti qeyd edilir, aşkar olunan ödənilməmiş və ya qismən ödənilməmiş gömrük ödənişlərinin ümumi məbləği, habelə akt üzrə qərarın qəbul olunması üçün əhəmiyyətə malik olan məlumatlar göstərilir və qeyd olunan pozuntuların (uyğunsuzluqların, çatışmazlıqların) aradan qaldırılması üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin tətbiq edilməsi əks olunur.

2.11. Yekun hissədə akt komissiya üzvləri barəsində gömrük auditi aparılmış hüquqi şəxsin rəhbəri, onu əvəz edən şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs tərəfindən imzalanır və yoxlanılan tərəfin möhürü ilə təsdiq olunur.

---

*«Gömrük auditinin həyata keçirilməsinin nəticələrinə dair aktın forması və tərtib edilməsi Qaydası»na*
***əlavə***

# Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi

# Gömrük auditinin həyata keçirilməsinin nəticələrinə dair _______ №-li AKT

***Bakı şəhəri, «____» __________ 20__ il***

## 1. Ümumi hissə

1.1. Auditin aparılması haqqında qərarın (əmrin) tarixi və nömrəsi.

1.2. Auditi həyata keçirən komissiya üzvlərinin vəzifələri, xüsusi rütbələri, soyadları, adları və atalarının adları.

1.3. Yoxlanılan şəxs haqqında məlumat (yoxlanılan hüquqi şəxsin adı, təsisçiləri haqqında məlumat (hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin soyadı, adı və atasının adı), VÖEN, hüquqi ünvanı).

1.3.1. Mövcud bank hesabları (bank, hesab nömrəsi və valyuta göstərilməklə).

1.3.2. Fəaliyyət növü (əsas fəaliyyət göstərilməklə).

1.3.3. Mövcud olan filiallar, rüsumsuz ticarət mağazaları, yaradılmış gömrük

anbarları və digər anbarlar (onların ünvanları və təsis olunma tarixi göstərilməklə).

1.4. Yoxlanılan şəxs barəsində həyata keçirilmiş son auditin nəticələrinə dair aktın tarixi və nömrəsi, auditi həyata keçirən gömrük orqanlarının əməkdaşlarının (müştərək gömrük auditi aparıldıqda, gömrük və vergi orqanlarının əməkdaşlarından ibarət komissiya üzvlərinin) vəzifələri, soyadları, adları və atalarının adları, auditin nəticələri (qısa şəkildə), qəbul edilmiş və icra olunan qərarlar.

1.5. Audit dövründə gömrük sahəsində əməliyyatların aparılmasına cavabdeh olan şəxslərin rekvizitləri.

1.6. Auditin forması (ümumi/xüsusi).

1.7. Auditin keçirildiyi dövr.

1.8. Auditin başlandığı və başa çatdığı tarix.

## 2. Analitik hissə

2.1. Audit dövründə yoxlanılan şəxs tərəfindən həyata keçirilmiş gömrük prosedurlarının icmalı (idxal və ixrac edilən malların statistik dəyəri qeyd olunmaqla), aparılmış idxal-ixrac əməliyyatlarının mövcud gömrük qanunvericiliyinə uyğunluğu, malların gömrük prosedurları altında yerləşdirilməsi zamanı müəyyən tələblərə və şərtlərə əməl olunması barədə məlumat.

2.2. Audit zamanı tələb olunan, lakin təqdim edilməmiş sənədlər, həmçinin aşkar olunan gizlədilmiş hesabat sənədləri (aşkar olunduğu halda).

2.3. Audit zamanı yoxlanılan şəxsin fəaliyyəti ilə bağlı əlavə məlumatların alınması üçün müvafiq gömrük və ya digər dövlət orqanına sorğunun göndərilməsi zərurəti yarandıqda, göndərilən sorğunun tarixi, qeydiyyat nömrəsi və həmin sorğuya cavab.

2.4. Audit zamanı mallara dair müvafiq ekspertizanın aparılması tələb olunduğu halda, həmin ekspertizadan əldə olunan nəticələr.

## 3. Təyinedici hissə

3.1. Aparılmış audit nəticəsində aşağıdakılar müəyyən edilmişdir:

- (yoxlama nəticəsində komissiya tərəfindən müəyyən edilmiş faktların məzmunu, Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinin pozulması faktları (bütün pozuntular qanunvericilik aktlarına istinad edilməklə, ayrı-ayrı bəndlər üzrə sadalanır), gömrük ödənişləri üzrə güzəştlər verilərkən, şərti buraxılmış mallar barəsində sərəncam verilməsi qaydalarının pozulması faktları barədə məlumatlar əks olunur. Bu zaman adı pozuntularla bağlı olan konkret şəxslərin (bəyannaməçi, mühasib və s.) rekvizitləri göstərilir).

3.2. Auditin nəticələrinin xülasəsi (aşkar olunmuş pozuntular, çatışmazlıqlar və uyğunsuzluqlar barədə məlumat, ödənilməmiş və ya qismən ödənilməmiş gömrük ödənişlərinin ümumi məbləği, yoxlanılan şəxs barədə tətbiq olunması nəzərdə tutulan tədbirlər).

3.3. Audit zamanı cinayət və inzibati hüquqpozma əlamətləri aşkar olunduğu halda, həmin hüquqpozma haqqında məlumat (Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin və ya Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi göstərilməklə hüquqpozmanın məzmunu).

3.4. Audit nəticəsində müvafiq qanunvericiliyin tələblərinə əməl olunmaması faktları, həmçinin cinayət və ya inzibati hüquqpozma əlamətləri aşkar olunmadığı hallarda, bu barədə qeyd.

## *4. Yekun hissə*

4.1. Bu hissədə aşağıdakı mətn qeyd olunur:

«Yoxlanılan şəxsin Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq, gömrük auditini aparan subyektə öz iradlarını təqdim etmək, bu aktda qeyd olunmuş qanunvericiliyin pozulması faktları, uyğunsuzluqlar və çatışmazlıqlar barədə etirazını bildirmək, əlavə sənədləri təqdim etmək, həmçinin bu akt təsdiq edildikdən sonra ondan şikayət etmək hüququ vardır».

4.2. Akt ____ vərəqdə və 2 nüsxədə tərtib olunmuşdur.

Qoşma ____ vərəq.

4.3. Aktın düzgünlüyünü təsdiq edirik:

| Komissiyanın üzvləri: | Rəhbər (onun vəzifələrini icra edən şəxs) |
|---|---|
| ______________________________ | ______________________________ |
| *(soyadı, adı, atasının adı)* | *(soyadı, adı, atasının adı)* |
| ______________________________ | ______________________________ |
| *(imza)* | *(imza, möhür)* |

4.4. Aktın bir nüsxəsini ________________________________ əlavələrlə birlikdə aldım və

*(əlavələrin sayı)*

bu barədə Nəzarət Kitabçasında qeyd aparıb imza etdim.

Rəhbər (onun vəzifələrini icra edən şəxs) və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs:

| ______________________ | ______________ | __________ |
|---|---|---|
| *(soyadı, adı, atasının adı)* | *(imza, möhür)* | *(tarix)* |

*© «VneshExpertService» LLC*